# TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ



## BORÇALI və QAZAX

**1728-ci il**

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

AKADEMİK Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

# TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ

## BORÇALI və QAZAX

## (1728-ci il)

Ön söz, tərcümə və şərhlərin müəllifi
**akademik Şahin Mustafayev**

**Bakı – 2022**

*Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur*

Tiflis əyalətinin müfəssəl dəftəri: Borçalı və Qazax (1728-ci il). Ön söz, tərcümə və şərhlərin müəllifi akademik Şahin Mustafayev. 2-ci təkmilləşdirilmiş nəşr. Bakı: "Elm", 2022. – 352 səh.

1720-ci illərdə Osmanlı imperiyasının Cənubi Qafqazı fəthi dövründə dövlətin maliyyə məmurları tərəfindən mövcud qaydalara uyğun olaraq yeni fəth olunmuş ərazilər üçün vergi reyestrləri (təhrir dəftərləri) tərtib edilmişdir. Oxucuların diqqətinə təqdim olunan "Tiflis əyalətinin müfəssəl dəftəri" də məhz həmin dövrün məhsuludur. Bir zamanlar vergi ödəyən əhalini qeydiyyata almaq və vergitoplama işlərini həyata keçirmək məqsədilə hazırlanmış bu sənəd hazırda XVIII əsrin ilk onilliklərində Borçalı və Qazax ellərinin sosial-iqtisadi tarixinə dair ən mötəbər və dəyərli qaynaqlardan biridir. Bu mənbədən tarixçilər, coğrafiyaçılar, iqtisadçılar, etnoqraflar, dilçilər, eləcə də geniş oxucu kütləsi faydalana bilər.

ISBN 978-9952-556-02-5

© Şahin Mustafayev, 2022

*1937-ci il terrorunun suçsuz qurbanlarından olmuş Kəsəmənli Molla Mustafa oğlunun əziz xatirəsinə*

# GİRİŞ

Orta əsrlər Azərbaycan tarixinin araşdırılması baxımından Osmanlı qaynaqlarının önəmi əvəzsiz və danılmazdır. Özəlliklə son orta çağ, XV yüzillikdə Qaraqoyunlu və Ağqoyunlu dövründən başlayıb XVIII əsrdə xanlıqlar dönəminədək cərəyan edən tariximizi Osmanlı mənbələrinə müraciət etmədən tam və dolğun şəkildə tədqiq etmək mümkün deyildir. Bu dövrlərdə Azərbaycanda baş verən hərbi, siyasi və dini hadisələri özünəməxsus tərzdə işıqlandıran Osmanlı vaqeənamələrindən fərqli olaraq, Osmanlı sənədli qaynaqları daha çox ölkənin iqtisadi və sosial durumunu əks etdirməkdədir.

Tarixi Azərbaycan ərazilərinə aid ən önəmli Osmanlı sənədli qaynaqları, şübhəsiz, maliyyə-vergi reyestrləridir (və ya "təhrir dəftərləri"). Bu da təsadüfi deyil. Altı əsrdən çox ömür sürmüş Osmanlı imperiyası olduqca mütəşəkkil və güclü mərkəziyyətçi üsul-idarə sisteminə malik idi. Bu sistemin başlıca tərkib hissələrindən biri olan vergitoplama aparatı daim dövlətin diqqət mərkəzində olmuşdur. Yeni fəth edilən ərazilərdə Osmanlı idarəçilik qurumlarının sürətlə təşkili və fəaliyyətə başlaması bu dövlətin siyasətində incəlikləriylə işlənmiş bir praktika idi və ənənə şəklini almışdı. "Osmanlı fəth üsulları" adlandırılan bu ənənəyə görə imperiyaya yeni ilhaq edilən torpaqlar üzərində ilk mərhələdə dərhal inzibati-ərazi bölgüsü aparılırdı[1]. Klassik dövrdə imperiyanın inzibati bölgüsü, əsasən, aşağıdan yuxarı istiqamətdə *nahiyə – sancaq/liva – vilayət/əyalət* üçlüyü prinsipi əsasında qurulurdu. İkinci mərhələdə isə bu ərazilər üzərində vergitoplama praktikası tətbiq edilməyə başlayırdı.

[1] *Inalcik H.* Ottoman Methods of Conquest // Studia Islamica. Paris, 1954, p. 103-129.

Osmanlı vergi praktikası, bir qayda olaraq, iki növ vergi dəftərinin tərtibini nəzərdə tuturdu – “icmal dəftəri” və “müfəssəl dəftər”. İcmal dəftərlərində başlıca olaraq “dirliklərin”, yəni dövlətin hərbi xidmət əvəzində hərbçi sipahilərə verdiyi torpaq sahələri və ya digər gəlir gətirən obyektlərin, onlar arasında bolüşdürülməsi və paylanması qaydaları göstərilirdi. Müfəssəl dəftərlərdə isə müvafiq inzibati vahidin daxili bölgüsü və sərhədləri (*sınırı*), o ərazidə mövcud olan yaşayış yerlərinin (şəhər, qəsəbə, kənd) adları, vergi ödəyən əhalinin adbaad sayı, mülkiyyət statusu və dini tərkibi, vergilərin növ və miqdarı, digər önəmli bilgilər qeyd edilirdi. Beləliklə, müfəssəl dəftər hər hansı bir inzibati vahid ərazisində vergi toplamaq üçün əsas sənəd hesab edilirdi. Yerlərdə vergitoplama praktikasına nəzarət etmək üçün bu dəftərlər iki nüsxədə tərtib olunub İstanbula baş dəftərxanaya göndərilirdi. Bu nüsxələr sultanın tuğrası ilə təsdiqləndikdən sonra dövlətin rəsmi sənədinə çevrilir, onlardan bir nüsxə İstanbulda Baş dəftərdarlıqda qalır, digəri isə müvafiq vilayət və ya əyalətə yerli məmurların praktik istifadəsi üçün göndərilirdi.

Beləliklə, orta çağ iqtisadi və sosial tariximizin bir çox aspektləri, o cümlədən tarixi coğrafiya, etnoqrafiya, onomastika, demoqrafiya, aqrar münasibətlər, vergi sistemi, dini qurumlar və s. məsələlərin öyrənilməsi üçün Osmanlı təhrir dəftərləri əvəzsiz qaynaqlardır. Bəzi Qərb alimləri (B.Lyüis, V.Minorski) hələ 1960-cı illərdə Osmanlı dəftərlərinin Cənubi Qafqaz və Azərbaycan tarixi üçün önəmli mənbə olduqlarını qeyd etmişdilər. Şirvan və Dərbənd tarixini araşdıran prof. V.Minorski İstanbul arxivlərində saxlanan Gəncə, Naxçıvan, Tiflis və Gürcüstana aid Osmanlı dəftərlərinin əhəmiyyətini xüsusi vurğulamışdır[1]. Ancaq, təəssüf ki, müxtəlif səbəblərdən uzun müddət Azərbaycanda Osmanlı qaynaqlarının araşdırılmasına gərəkli diqqət yetirilməmişdir. Azərbaycan tarixi üçün Osmanlı dəftərlərinin xüsusi əhəmiyyətini dərk edərək onların ilk sistematik tədqiqini təşkil edən və başladan alim akademik Ziya Bünyadov olmuşdur. Tarixi Azərbaycan ərazilərinə aid təhrir dəftərlərinin ilk mikrofilmlərini İstanbul arxivlərindən gətirməklə və onların hazır-

[1] *Минорский В.М.* История Ширвана и Дербента X-XI веков. Москва: Издательство восточной литературы, 1963, с. 160-161.

lanıb yayınlanmasında bilavasitə iştirak etməklə akademik Z.Bünyadov Azərbaycanda sistematik Osmanlı araşdırmalarının əsasını qoymuşdur. Onun tarix üzrə fəlsəfə doktoru H.Məmmədovla birgə nəşr etdirdikləri İrəvan[1] və Naxçıvan[2] dəftərləri, daha sonra isə H.Məmmədovun nəşr etdiyi Gəncə-Qarabağ dəftəri[3] Azərbaycanda bu sahədə atılmış ilk önəmli addımlardır.

Təkrar nəşrini hazırladığımız "Tiflis əyalətinin müfəssəl dəftəri" (*Defter-i Mufassal-ı Eyâlet-i Tiflis*) son illərdə bu sahədə aparılan işlərin davamı kimi dəyərləndirilməlidir. Bilindiyi kimi, XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin çökdüyü və dağıldığı bir dönəmdə Xəzəryanı bölgələrdə Rusiyanın hərbi təcavüzünün qarşısını almaq məqsədilə Osmanlı imperiyası Cənubi Qafqaz, o cümlədən Azərbaycan torpaqlarını fəth etmişdir. İmperiyaya birləşdirilən yeni əraziləri inzibati və sosial-iqtisadi baxımdan nizama salmaq məqsədilə Osmanlı idarəçiləri burada qısa bir zamanda vergi ödəyən əhalinin siyahıyaalınma işlərini aparmış və maliyyə-vergi reyestrlərini (və ya təhrir dəftərlərini) tərtib etmişdilər. "Tiflis əyalətinin müfəssəl dəftəri" də bu sıraya daxildir.

Osmanlı fəthindən sonra 1728-ci ildə hazırlanması başa çatmış bu dəftər iki hissədən ibarətdir. Birinci hissə, əsasən, Tiflis şəhərinin özü və bir sıra ona bağlı olan və başlıca olaraq xristian (gürcü) əhalisinin məskun olduğu inzibati vahidləri ehtiva edir. İkinci hissə isə yenə də Tiflis əyalətinə aid olan, lakin böyük sayda müsəlman türk (azərbaycanlı) əhalisinin də məskun olduğu əraziləri, o cümlədən bəzi tarixi Azərbaycan torpaqlarını əhatə edir. Qeyd olunan dəftərin hər iki hissəsi bir-birindən ayrı müstəqil arxiv sənədi kimi fərqli şifrlər altında İstanbul Başbakanlık Arxivində qorunub saxlanmaqdadır. Burada ilk növbədə Azərbaycan tarixinə bilavasitə aidiyyəti olan Tiflis əyalətinin müfəssəl dəftərinin ikinci hissəsi (arxiv şifrəsi 897) oxucuların diqqətinə təqdim olunur.

---

[1] İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z.M.Bünyadov və t.e.n.H.Məmmədov). Bakı: "Elm", 1996.

[2] Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümənin müəllifləri akad. Z.M.Bünyadov və t.e.n. H.Məmmədov). Bakı: "Elm", 1996.

[3] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı: "Şuşa", 2000.

Mənbənin Azərbaycanın sosial-iqtisadi və etnodemoqrafik tarixi üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, onu ilk dəfə 2001-ci ildə tərcümə edib nəşr etdirdik[1]. Kitab elmi ictimaiyyətin marağını cəlb etdiyindən tezliklə nadir nəşrlər sırasına daxil oldu. Lakin iyirmi il əvvəl kiril əlifbasıyla çap olunan kitabdan bu gün oxucuların böyük hissəsi istifadə etməkdə çətinlik çəkir. Ona görə "Tiflis dəftəri"nin müasir Azərbaycan (latın) əlifbasında ikinci nəşri məqsədəuyğun görüldü. Dəftərin dar elmi dairələrdən başqa geniş oxucu kütləsi üçün də anlaşıqlı olması üçün mənbənin tekstoloji variantı və transliterasiyası deyil, tərcüməsi hazırlandı. Bununla həm də daha öncə Azərbaycan dilində çap olunmuş İrəvan, Naxçıvan və Gəncə-Qarabağ dəftərlərinin hazırlanma və nəşr prinsipləri gözlənilmiş oldu.

Birinci nəşrin üzərində işlədiyimiz zaman əlyazmanın yalnız mikrofilmindən istifadə edə bilmişdik. Təəssüf ki, o zaman əldə olan mikrofilmin mənbənin mətnini tam şəkildə əks etdirməməsi, bir sıra hissələrinin naqis olması işin çapa hazırlanmasında başlıca maneələrdən biri olmuşdur. Tərcümədə mövcud olan buraxılışlar, əsasən, bununla bağlı idi. Digər tərəfdən, əlyazmanın "siyaqət"lə, yəni ərəb əlifbasının çox mürəkkəb xətti ilə yazılması da mətnin hazırlanmasında çətinliklər yaratmışdır. Ona görə bir sıra termin, yer ya şəxs adlarının oxunuşunda müəyyən şərtiliyə yol verilmiş, ağır oxunan və ya heç oxunmayan hissələr isə (...) və (?) işarələri ilə qeyd edilmişdir.

Lakin bir neçə il əvvəl Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun dəstəklədiyi layihə çərçivəsində İstanbul Başnakanlık Arxivində saxlanan və tarixi Azərbaycan əra-

---

[1] Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax). Bakı: "Pedaqogika" nəşriyyatı, 2001. Yeri gəlmişkən, o zaman "Tiflis dəftəri"nin mikrofilmini mənə təqdim etmiş və əlyazmanın nəşrə hazırlanmasında yardımını əsirgəməmiş t.ü.f.d. Hüsaməddin Məmmədova, tərcümənin əlyazması ilə tanış olub qeydlərini mənə bildirmiş Türkiyəli məsləkdaşım doktor Yılmaz Kurta bir daha təşəkkür bildirməyi özümə borc sayıram. Eyni zamanda, Tiflis dəftərinin hazırki təkmilləşdirilmiş nəşri üçün bir sıra tekstoloji sualların dəqiqləşdirilməsində yardım göstərmiş Türkiyəli həmkarlarım Ahmet Özkılınç ve Numan Yekelerə, bəzi gürcümənşəli toponimlərin izahı və texniki tərtibat işində xüsusi köməklik etmiş Fikrət Süleymanoğluna, həmçinin Gülər Qafqazlı, Yaxşıxanım Nəsirova və Natəvan Ağayevaya təşəkkür etmək istərdim.

zilərinə aid olan bir sıra mənbələrin, o cümlədən 897 saylı Tiflis əyalətinin müfəssəl dəftərinin yeni və keyfiyyətli fotosurətlərinin elektron variantlarını əldə etmək mümkün oldu. Bunun sayəsində mənbənin mətni üzərində yenidən iş aparıb onun təkrar nəşrində qeyd olunan naqisliklərin böyük hissəsini mümkün qədər aradan qaldırmağa çalışdıq. Bununla yanaşı, birinci nəşrdə Fihrist və Borçalının Baratlı və Tumanis nahiyələrinə aid boş buraxılmış hissələri də ilk dəfə hazırlanıb kitaba əlavə edildi. Beləliklə, bu dəfə "Tiflis əyalətinin müfəssəl dəftəri"nin tərcüməsi daha təkmilləşdirilmiş şəkildə və müasir Azərbaycan əlifbasında oxucuların diqqətinə təqdim olunur.

Tiflis dəftərinin ilk səhifəsində onun İstanbulda Osmanlı Divanı tərəfindən rəsmi sənəd kimi təsdiqləndiyini göstərən ifadə mövcuddur: "*İşbu təhrir dəftəri alə-d-dəvam düstur-ül-əməl tutulmaq üçün dəftər-i cədid-i xaqanidə hifz olunmaq buyuruldu. [2]4 ramazan sənə 1140*". Eyni səhifədə dövrün sultanı olan III Əhmədin (1703-1730) tuğrası var. Dəftərin sonrakı səhifələrində mətnin Fihristi verilmişdir.

Osmanlı dönəmində Tiflis əyalətinin bu mənbədə əksini tapmış inzibati vahidləri aşağıdakılardan ibarət idi:

1. Baratlı nahiyəsi,
2. Tumanis nahiyəsi,
3. Baydar nahiyəsi,
4. Dəmirçihəsənli nahiyəsi,
5. Somxit livasının nahiyəsi,
6. Taşır nahiyəsi,
7. Pənbək nahiyəsi,
8. Ağcaqala livası,
9. Qazax livasına tabe olan İncə nahiyəsi,
10. Qazax livasına tabe olan Çuvar nahiyəsi,
11. Qazax livasına tabe olan Axstabad nahiyəsi,
12. Qazax livasına tabe olan Türk nahiyəsi.

Beləliklə, bu dövrdə Qazax bölgəsi dörd nahiyədən ibarət ayrıca inzibati vahid olaraq "liva" ("sancaq") statusu ilə Tiflis əyalətinin

tərkibində yer almışdır[1]. Tarixi Borçalı torpaqları isə Osmanlı inzibati-siyasi sistemi daxilində xüsusi vahid bölgə statusuna sahib deyildi. Buna görə də dəftərin Borçalıya aid hissəsinin hazırlanmasında müəyyən şərtiliyə yol verilmişdir. Borçalının təqribi sərhədləri və əhatə etdiyi nahiyələrin təyinində 1721-ci il Kartli siyahıyaalmasının sənədləri, Vaxuştinin xəritəsi[2] və XIX yüzillikdə Rusiya imperiyası daxilində mövcud olmuş Borçalı qəzasının (*Borçalinskiy uyezd*) göstəriciləri əsas olaraq götürülmüşdür. Beləliklə, mənbədə verilən Baratlı, Tumanis, Baydar, Dəmirçihəsənli, Somxit[3], Taşır, Pənbək, Ağcaqala[4] nahiyələrini xüsusi stasusa sahib olan inzibati vahid kimi deyil, yalnız tarixi-coğrafi bölgə kimi "Borçalı" adı altında şərti olaraq birləşdirdik.

Qeyd edildiyi kimi, "Tiflis dəftəri" Osmanlı dönəmində tarixi Borçalı və Qazax bölgələrinin inzibati-ərazi quruluşu, iqtisadi durumu, burada yaşayan vergiyə mükəlləf əhalinin dini-etnik mənsubiyyəti və sosial statusu haqqında önəmli məlumat verməkdədir (bax: Cədvəl). Azərbaycan və Cənubi Qafqazın orta əsrlər sosial-iqtisadi tarixini araşdıran mütəxəssislər üçün bu bilgilər faydalı olacaq.

Cədvəldən göründüyü kimi, bəzi nahiyələrdə müsəlman türklərlə (azərbaycanlılarla) bərabər qeyri-müsəlman əhalisi də yaşamaqda idi. Bir sıra inzibati vahidlərdə isə xristian əhalisi çoxluq təşkil edirdi. Qeyd etmək gərəkdir ki, müsəlman və xristian kəndlə-

---

[1] Dəftərin Qazağa aid hissəsi H.Məmmədov tərəfindən namizədlik dissertasiyasında istifadə edilmişdir. Bax: Г.Мамедов. Османская налоговая система в Азербайджане в 20-30 гг. XVIII в. (На материалах эялета Гяндже и санджака Казах). – Автореферат диссертация на соискание ученой степени кандидата исторических наук. Баку: 1985. Eyni müəllifin Gürcüstandakı türkköklü yer adlarına həsr edilmiş məqaləsi də var: H.Məmmədov. "Dəftəri-müfəssəli-əyaləti-Tiflis"də yer adları // "Azərbaycan filologiyası məsələləri. 2 buraxılış". Bakı, "Elm", 1985, ss. 156-163.

[2] Vaxuşti Baqrationi. Gürcüstan coğrafiyası. Tbilisi: 1997 (gürcü dilində). Bu mənbənin istifadəsində mənə yardım etmiş Fikrət Süleymanoğluna təşəkkür edirəm.

[3] "Somxit" sözünün gürcü dilində "somexi" (erməni) və "eti" (yaşayış yeri) sözlərindən əmələ gəldiyi və "ermənilərin yaşadığı yer" anlamında oldğu ehtimal olunur. Lakin prof. F.Kırzıoğlu burada yaşayan əhalini "Qoqarlı soyuna aid xalq – somkhitarlar" adlandırır (Bax: Fahreddin Kırzıoğlu. Kıpçaklar. Ankara: 1992, s. 134).

[4] Osmanlı inzibati-ərazi bölgüsünə görə, Ağcaqala nahiyəsi Ağcaqala sancağına (livasına) tabe idi.

rini bir-birindən yalnız orada yaşayan insanların şəxs adları ilə deyil, həm də ödənilən vergi növlərinə görə fərqləndirmək mümkündür. Belə ki, *çift*, *bennak* və *mücərrəd* vergiləri ödəyən müsəlmanlardan fərqli olaraq, qeyri-müsəlmanlardan *ispəncə* vergisi alınırdı.

*Cədvəl:* **Borçalı və Qazağa aid bəzi nahiyələrin illik gəlirləri və əhalisi**

| **№** | **İnzibati vahidlər (*liva* və *nahiyə*)** | **İllik gəlir (*ağça ilə*)** | **Yaşayış məntəqələri və camaatlar** | **Vergi ödəyənlərin sayı** | |
|---|---|---|---|---|---|
| | | | | **müsəl-manlar** | **qeyri-müsəl-manlar** |
| 1 | Baratlı | 2 204 820 | 329 | 231 | 3 973 |
| 2 | Tumanis | 532 747 | 84 | – | 1 270 |
| 3 | Baydar | 818 361 | 56 | 1295 | 39 |
| 4 | Dəmirçihəsənli | 818 958 | 88 | 1988 | – |
| 5 | Somxit | 1 428 960 | 132 | 228 | 2 431 |
| 6 | Taşır | 313 145 | 47 | 2 | 232 |
| 7 | Pənbək | 231 340 | 89 | 421 | 278 |
| 8 | Ağçaqala | 659 800 | 66 | 633 | 84 |
| 9 | İncə | 185 100 | 55 | 81 | 117 |
| 10 | Çuvar | 267 100 | 67 | 391 | 186 |
| 11 | Axstabad | 451 710 | 75 | 245 | 314 |
| 12 | Türk | 132 600 | 33 | – | 42 |
| TOPLAM | | 8 044 641 | 1 121 | 5 515 | 8 966 |

Kitab, ilk növbədə, Azərbaycan oxucularına ünvanlandığı üçün, qeyd olunduğu kimi, mənbənin transliterasiyası deyil, tərcüməsi hazırlanıb. Müsəlman türk (azərbaycanlı) əhalisinin məskun olduğu yaşayış məntəqələrinə aid hissələr tam şəkildə tərcümə olunduğu halda, qeyri-müsəlman əhalisinin yaşadığı kəndlərin yalnız adı, orada məskun olan və vergiyə mükəlləf tutulan insanların və bəzi hallarda "xanə" (ev) adlanan vergiödəmə vahidlərinin sayı və nəhayət, dövlət xəzinəsi tərəfindən alınan gəlirin ümumi məbləği qeyd olunub. Bu kəndlərin adlarının önündə onların qeyri-müsəlman əhalisi ilə məskun olduğunu göstərən "+" işarəsi qoyulmuşdur.

Aşağıda gətirilən örnək oxucularda xristian əhalisinin məskun olduğu kəndlərlə bağlı mənbədə hansı növ məlumatın verildiyi barədə kifayət qədər təsəvvür yarada bilər:

**651. +** PƏNBƏK [NAHİYƏSİNƏ] TABE [OLAN] **SARMISAQLI** KƏNDİ

*14 nəfər [qeyri-müsəlman vergi ödəyənin adbaad siyahısı]*

***Gəlir***

*İspəncə – 14 nəfər, dəyəri – 1 680 [ağça]*
*Buğda – 60 keyl; dəyəri – 1 200 [ağça]*
*Arpa – 40 keyl; dəyəri – 60 [ağça]*
*Çovdar – 20 keyl; dəyəri – 300 [ağça]*
*Darı – 20 keyl; dəyəri – 300 [ağça]*
*Yağ vergisi – 140 [ağça]*
*Arı pətəklərindən alınan vergi – 80 [ağça]*
*Qoyun və keçi vergisi – 90 [ağça]*
*Gəlinlik vergisi – 120 [ağça]*
*Ot vergisi – 80 [ağça]*
*Dəştbani və torpaq vergisi – 100 [ağça]*
*Donuz vergisi – 120 [ağça]*
*Badi-hava, cürm-ü-cinayət, yava, qaçqın, beyt-ül-mal-i ammə və xassə, mal-i ğayib, mal-i məvqud – 1 500 [ağça]*

***Yekun: 4 880 [ağça]***

Mənbənin mətnindən göründüyü kimi, dəftərdə müsəlman və qeyri-müsəlman kəndləri barədə verilən məlumat, əsasən, eyni standart xarakter daşıyır. Burada kəndin adı, onun hansı inzibati vahidə tabe olması, orada məskun olan vergi ödəyicilərinin adı, onların sosial və ailə statusu, vergilərin növü, məbləği və həmin kənddən alınan ümumi gəlir öz əksini tapırdı.

Eyni zamanda qeyd etmək lazımdır ki, mənbənin mətnində bəzi istisnalar da var. Məsələn, Pənbək və Çuvar nahiyələrinə tabe olan bir neçə kəndin (Salmanlı, Kiçik Ayaran, Qaradink, Qocavank, Xoşgünan) rəiyyətlərinin adlarından onların mənşəcə qeyri-müsəl-

man olduqları anlaşılır. Lakin onlardan *ispəncə* vergisi deyil, müsəlmanlardan toplanan *çift* və *bennak* vergiləri alınırdı. Ona görə, tərcümədə bu rəiyyətlərin adları buraxılsa da, onların yaşadıqları kəndlər digər xristian kəndləri kimi "+" işarəsi ilə qeyd edilməmişdir. Maraqlıdır ki, əhalisi qarışıq, yəni müsəlman və xristianlardan ibarət olan bir neçə kənddə də qeyri-müsəlman rəiyyətlər *ispəncə* vergisi əvəzinə *çift* və *bennak* vergiləri ödəyirdilər.

Mənbənin mətnində klassik osmanlıca olan bəzi termin, yer və şəxs adları tərcümədə çağdaş Azərbaycan orfoqrafiyasına uyğun şəkildə verilmişdir, məsələn: *akçe – ağça, Taşdəmür – Daşdəmir, Temürcühəsənli – Dəmirçihəsənli, Tavşanlu – Dovşanlı, Bəyköprü – Bəykörpü* və s. Və ya izafətlə verilmiş kənd adları tərcümə olunaraq müasir Azərbacan dilində səsləndiyi kimi təqdim olunur (*Qazankənd-i bala – Yuxarı Qazankənd, Qaradərzi-yi sufla – Aşağı Qaradərzi* və s.). Mənbədə işlədilmiş bir sıra Osmanlı xüsusi terminlərinin, o cümlədən vergi adlarının müasir dilimizə tərcüməsi asanlıqla mümkün oldu, məsələn, *rəsm-i arusanə* (gəlinlik vergisi), *adəti-ağnam* (qoyun və keçi vergisi), *tapu-yi zəmin* (torpaq tapusu), *rəsm-i ruğən* (yağ vergisi), *rəsm-i giyah* (ot vergisi), *üşr-i pənbə* (pambıq üşrü) və s. Ancaq bəzi istilahların orijinalda olduğu kimi saxlanılması məqsədəuyğun görüldü və onların mənası kitabın sonunda verilmiş "Qısa terminoloji sözlük"də açıqlanır.

Tərcümədə hər kəndin adının önündə qeyd olunan sıra nömrələri əlyazmanın mətnində göstərilən saylardır. Mənbənin mətnində olduğu kimi tərcümədə də rəiyyətlərin adlarından sonra onların mülkiyyət və ailə statuslarını bildirən "b." (*bennak*), "c." (*caba*) və "m." (*mücərrəd*) hərfləri verilmişdir.

Qeyd etmək lazımdır ki, əlyazmanın mətnində ara-sıra statistik səhvlərə rast gəlinir. Belə ki, bəzi kəndlərin gəlir yekunu və ya məskun olan rəiyyətlərin sayı gerçək rəqəmlərə uyğun gəlmir. Buna baxmayaraq, tərcümədə mənbənin mətninə sadiq qalınmış, verilən bəzi düzəlişlər isə mötərizə içində göstərilmişdir. Bütün deyilənlərlə yanaşı, əlyazmanın mətnində bir sıra çətin oxunan və anlaşılan sözlər, xüsusilə toponim və şəxs adlarının yazılışında müəyyən sərtiliyə yol verildiyinin və beləliklə, oxucuların diqqətinə təqdim olunan bu nəşrin bəzi mümkün çatışmazlıqlardan xali olmadığının da fərqindəyik.

* * *

Ümid etmək istərdik ki, təkrar və təkmilləşdirilmiş şəkildə işıq üzü görən 1728-ci ilə aid "Tiflis əyalətinin müfəssəl dəftəri"nin Borçalı və Qazağa aid hissələri mütəxəssislər və bütün oxucular üçün faydalı və maraqlı olacaq.

# TİFLİS ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİNİN TƏRCÜMƏSİ

*İşbu təhrir dəftəri alə-d-dəvam düstur-ül-əməl tutulmaq üçün dəftər-i cədid-i xaqanidə hifz olunmaq buyuruldu. [2]4 ramazan sənə 1140 (04.V.1728)*



**[Sultan III Əhmədin tuğrası]**

# TİFLİS ƏYALƏTİ KƏNDLƏRİNİN FİHRİSTİ

### Baratlı nahiyəsi

1. Sıxnar kəndi – 8 112 [ağça]
2. Saxaned kəndi – 5 872 [ağça]
3. Liğuret kəndi – 13 650 [ağça]
4. Ğunzan kəndi – 10 618 [ağça]
5. Cvara kəndi – 8 160 [ağça]
6. Burvil kəndi – 6 938 [ağça]
7. Mənqalis kəndi – 6 190 [ağça]
8. Zopa kəndi – 6 570 [ağça]
9. İrake kəndi – 6 216 [ağça]
10. Dranit kəndi – 13 230 [ağça]
11. Sarkinet kəndi – 1 500 [ağça]
12. Aşağı Qarağa[1] kəndi – 2 000 [ağça]
13. Lomis Uban kəndi – 1 500 [ağça]
14. Şulurquti kəndi – 1 800 [ağça]
15. Dumanis kəndi – 9 187 [ağça]
16. Biçut kəndi – 394 [ağça]
17. Qumarit kəndi – 5 330 [ağça]
18. Rapaket kəndi – 1 590 [ağça]
19. Bosut kəndi – 2 000 [ağça]
20. Samqret kəndi – 7 326[ağça]
21. Axalşen kəndi – 3 970 [ağça]
22. Aşağı Lib kəndi – 3 795 [ağça]
23. Yuxarı Lib kəndi – 1 500 [ağça]
24. Xorbet kəndi – 1 900 [ağça]

[1] Mətndə “Qarağa-i sufla”.

25. Yuxarı Qarağa[1] kəndi – 3 755 [ağça]
26. Orta Qarağa[2] kəndi – 4 495 [ağça]
27. Krepa kəndi – 6 615 [ağça]
28. Axali Uban kəndi – 1 300 [ağça]
29. Samşvilde kəndi – 20 000 [ağça]
30. Qırzanis kəndi – 1 000 [ağça]
31. Topraqqala kəndi – 1 820 [ağça]
32. Böyük Dağed kəndi – 7 194 [ağça]
33. Kiçik Dağed kəndi – 15560 [ağça]
34. Vərxuna kəndi – 13 000 [ağça]
35. Suğret kəndi – 900 [ağça]
36. Vanat kəndi – 1 800 [ağça]
37. Teknakad kəndi – 2 500 [ağça]
38. Kvarit kəndi – 5 381 [ağça]
39. Avezan kəndi – 950 [ağça]
40. Karis kəndi – 4 900 [ağça]
41. Tğimreze kəndi – 7 344 [ağça]
42. Verxunla kəndi – 3 000 [ağça]
43. Anbasu kəndi – 1 600 [ağça]
44. Sudet kəndi – 3 925 [ağça]
45. Quristu kəndi – 4 065 [ağça]
46. Sameba kəndi – 1 500 [ağça]
47. Ğudrec kəndi – 1 800 [ağça]
48. Vake kəndi – 5 355 [ağça]
49. Abelia kəndi – 2 000 [ağça]
50. Çxikvta kəndi – 6 000 [ağça]
51. Ğuvliya kəndi – 1 800 [ağça]
52. Tilsuman kəndi – 600 [ağça]
53. Basulet kəndi – 2 800 [ağça]
54. Mizaviz kəndi – 555 [ağça]
55. Ardu kəndi – 1 000 [ağça]
56. Manqlis kəndi – 14 347 [ağça]
57. Amlevi kəndi – 5 404[ağça]

---

[1] Mətndə "Qarağa-i ulya".
[2] Mətndə "Qarağa-i vusta".

58. Abramid kəndi – 800 [ağça]
59. Taqvi kəndi – 3 910 [ağça]
60. Zris kəndi – 2 000 [ağça]
61. Bulav kəndi – 4 225 [ağça]
62. Xorbuq kəndi – 2 500 [ağça]
63. Xekorzi kəndi – 4 045 [ağça]
64. Beşçuvar kəndi – 2 000 [ağça]
65. Qubla kəndi – 600 [ağça]
66. Suxiriz kəndi – 1 000 [ağça]
67. Ardo kəndi – 500 [ağça]
68. Qubanil kəndi – 500 [ağça]
69. Xa kəndi – 2 000 [ağça]
70. Butru məzrəəsi – 500 [ağça]
71. Axalşen məzrəəsi – 300 [ağça]
72. Sabudarə məzrəəsi – 400 [ağça]
73. Ərnaq məzrəəsi – 600 [ağça]
74. Sicaz kəndi – 500 [ağça]
75. Aşağı Odis[1] kəndi – 10 575 [ağça]
76. Ağnaban kəndi – 3 000 [ağça]
77. Cudet kəndi – 4 000 [ağça]
78. Duvalitə kəndi – 4 500 [ağça]
79. Odis kəndi – 11 455 [ağça]
80. Moxis kəndi – 14 500 [ağça]
81. Asvit kəndi – 4 500 [ağça]
82. Mamir Daba kəndi – 2 500 [ağça]
83. Quluna kəndi – 1 632 [ağça]
84. Şavta kəndi – 1 500 [ağça]
85. Vanat kəndi – 2 000 [ağça]
86. Ğarqulub kəndi – 1 200 [ağça]
87. Dire kəndi – 1 800 [ağça]
88. Sağırşin kəndi – 7 600 [ağça]
89. Acupis kəndi – 5 385 [ağça]
90. Zrbit kəndi – 12 550 [ağça]
91. Oşet kəndi – 2 000 [ağça]

---

[1] Mətndə "Odis-i sufla".

92. Parsçxiris kəndi
93. Tbis kəndi – 16 820 [ağça]
94. Buşqulet kəndi – 1 800 [ağça]
95. Albiya kəndi – 2 000 [ağça]
96. Zinvenax kəndi – 800 [ağça]
97. Anaget kəndi – 3 745 [ağça]
98. Ğultet kəndi
99. Zenzğaro kəndi – 19 650 [ağça]
100. Macevan kəndi – 8 500 [ağça]
101. Marabda kəndi – 10 405 [ağça]
102. Durnuq kəndi – 14 500 [ağça]
103. Qutşara kəndi – 800 [ağça]
104. Toprağud kəndi – 8 500 [ağça]
105. Zinanaur kəndi – 800 [ağça]
106. Ğuluna kəndi – 1 432 [ağça]
107. Bok kəndi – 13 000 [ağça]
108. Hacako kəndi
109. Digər Hacako kəndi
110. Şimuntia kəndi – 800 [ağça]
111. Samaçvit kəndi – 14 350 [ağça]
112. Ğuban kəndi – 23 000 [ağça]
113. Sağoris kəndi – 5 475 [ağça]
114. Dideba kəndi – 2 000 [ağça]
115. Kiket kəndi – 6 550 [ağça]
116. Eşveşxere kəndi – 5 610 [ağça]
117. Monastir kəndi – 8 620 [ağça]
118. Asuret kəndi – 3 282 [ağça]
119. Taknagit kəndi – 28 140 [ağça]
120. Ertes kəndi – 7 286 [ağça]
121. Muxatli kəndi – 2 508 [ağça]
122. Kumeş kəndi – 25 720 [ağça]
123. Dedaxqur kəndi – 30 000 [ağça]
124. Vaşlivan kəndi – 17 344 [ağça]
125. Tabaqmela kəndi – 7 000 [ağça]
126. Şendis kəndi – 1 200 [ağça]
127. Qudalis kəndi – 1 300 [ağça]

128. Zavkis kəndi – 16 580 [ağça]
129. Oqurqane kəndi – 500 [ağça]
130. Qocor kəndi – 500 [ağça]
131. Zaqnet kəndi – 17 535 [ağça]
132. Axaldaba kəndi – 16 180 [ağça]
133. Txilvan kəndi – 12 980 [ağça]
134. Sxaldid kəndi – 800 [ağça]
135. Menasir kəndi – 600 [ağça]
136. Aşağı Naxşirkor[1] kəndi – 3 000 [ağça]
137. Yuxarı Naxşirkor[2] kəndi – 2 800 [ağça]
138. Bevret kəndi – 2 800 [ağça]
139. Telovan kəndi – 1 000 [ağça]
140. Machan kəndi – 4 500 [ağça]
141. Kuşet kəndi – 2 800 [ağça]
142. Aquris kəndi – 1 800 [ağça]
143. Ğviv kəndi – 1 000 [ağça]
144. Beştiya kəndi – 8 710 [ağça]
145. Zurvat kəndi – 6 460 [ağça]
146. Zvir kəndi – 8 340 [ağça]
147. Lis kəndi – 14 885 [ağça]
148. Codoret kəndi – 7 390 [ağça]
149. Veris kəndi – 6 922 [ağça]
150. Diqom kəndi – 12 9330 [ağça]
151. Karsan kəndi – 25 000 [ağça]
152. Mxatkvirdi kəndi – 6 000 [ağça]
153. Niqul kəndi – 3 000 [ağça]
154. Qorquta kəndi – 500 [ağça]
155. Telvan kəndi – 12 800 [ağça]
156. Qopa kəndi – 3 500 [ağça]
157. Armaz kəndi – 8 500 [ağça]
158. Qırdanis kəndi – 24 000 [ağça]
159. Kvemo Telet kəndi – 4 900 [ağça]
160. Hacı Telet kəndi – 6 000 [ağça]

---

[1] Mətndə "Naxşirkor-i sufla".
[2] Mətndə "Naxşirkor-i ulya".

161. Muxran Telet kəndi – 2 000 [ağça]
162. Qarababa kəndi – 3 000 [ağça]
163. Marnaul kəndi – 10 000 [ağça]
164. Nəzərkəndi kəndi – 2 000 [ağça]
165. Çinarkəndi kəndi – 4 242 [ağça]
166. Əklis kəndi – 30 000 [ağça]
167. Qoşakəmzə kəndi – 5 000 [ağça]
168. Topraqqala kəndi – 9 505 [ağça]
169. Cəlayir kəndi – 150 000 [ağça]
170. Andria kəndi – 20 805 [ağça]
171. Tamqudkülə kəndi – 6 773 [ağça]
172. Mukud kəndi – 4 616 [ağça]
173. Mirdaş kəndi – 4 000 [ağça]
174. Balecavir kəndi – 3 000 [ağça]
175. Kersixle kəndi – 2 500 [ağça]
176. İrdesuban kəndi – 5 600 [ağça]
177. İnob kəndi – 14 315 [ağça]
178. Tapan kəndi – 14 985 [ağça]
179. Ağbaba kəndi – 40 000 [ağça]
180. Nəxad[1] kəndi – 100 000 [ağça]
181. Nəsibli kəndi – 17 680 [ağça][2]
182. Vargit kəndi – 2 000 [ağça]
183. Quranite kəndi – 95 000 [ağça]
184. Retvan kəndi – 8 375 [ağça]
185. Disvel kəndi – 800 [ağça]
186. Asğil kəndi – 1 200 [ağça]
187. Muxran kəndi – 900 [ağça]
188. Satredo kəndi – 4 300 [ağça]
189. Diya kəndi – 2 800 [ağça]

---

[1] Mətnin əsas hissəsində bu kəndin adı "Nəxadır" kimi yazılıb.

[2] Bəzi hallarda bu və ya digər kəndin Fihrist hissəsində verilən vergi gəlirlərinin rəqəmlərilə mətnin əsas hissəsində verilən rəqəmlər arasında ciddi fərqlər ola bilər. Məsələn, Nəsibli kəndinin vergi gəlirləri burada, Fihrist hissəsində, 17 680 ağça kimi göstərildiyi halda, əsas mətndə 39 680 ağça kimi göstərilib ki, bu rəqəmlərin arasında 22 000 ağça qədər böyük fərq var. Hər-halda, belə uyğunsuzluqları katiblərin səhvi ilə izah etmək olar.

190. Akavurta kəndi – 1 542 [ağça]
191. Zalkutiş kəndi – 33 000 [ağça]
192. Tanzine kəndi – 28 780 [ağça]
193. Kiçik Danzine kəndi – 2 500 [ağça]
194. Topraqqala kəndi – 2 200 [ağça]
195. Musiryan kəndi – 15 770 [ağça]
196. Cinadban kəndi – 16 935 [ağça]
197. Ceriş kəndi – 4 200 [ağça]
198. Qubanel kəndi – 1 800 [ağça]
199. Tala kəndi – 1 800 [ağça]
200. Posxveriyan kəndi – 16 610 [ağça]
201. Abono kəndi – 11 025 [ağça]
202. Mintarit kəndi – 18 295 [ağça]
203. Dərbas kəndi – 5 300 [ağça]
204. Tazminə kəndi – 1 900 [ağça]
205. Vaşlob kəndi – 3 000 [ağça]
206. Savanet kəndi – 800 [ağça]
207. Kəlvir kəndi – 3 900 [ağça]
208. ‘Ağalu kəndi – 3 000 [ağça]
209. Xaxalaçver kəndi – 1 200 [ağça]
210. Kürdkam kəndi – 500 [ağça]
211. Çumsuban kəndi – 800 [ağça]
212. Ziver kəndi – 6 890 [ağça]
213. Abniyar kəndi – 3 200 [ağça]
214. Bağçalar kəndi – 6 425 [ağça]
215. Bostanlar kəndi – 5 000 [ağça]
216. Sam kəndi – 9 882 [ağça]
217. Cabarqila kəndi – 3 000 [ağça]
218. Urmaşin kəndi – 9 720 [ağça]
219. Yuxarı Lib[1] kəndi – 1 500 [ağça]
220. Şəndlər kəndi – 26 790 [ağça]
221. Yuxarı Sataris[2] kəndi – 17 380 [ağça]
222. Aşağı Sataris[1] kəndi – 18 725 [ağça]

---

[1] Mətndə “Lib-i bala”.
[2] Mətndə “Sataris-i ulya”.

223. Ğarabəy kəndi – 5 835[ağça]
224. Dəmalə kəndi – 4 000 [ağça]
225. Samağara kəndi – 5 355 [ağça]
226. Saluğa kəndi – 2 500 [ağça]
227. Minakerd kəndi – 10 505 [ağça]
228. Göyərçin kəndi – 17 808 [ağça]
229. Qarakilsə Yaylağı kəndi – 3 500 [ağça]
230. Aşağı Qacarlı kəndi – 2 500 [ağça]
231. Yuxarı Qacarlı kəndi – 1 200 [ağça]
232. Orta Qacarlı kəndi – 1 200 [ağça]
233. Zeynəl Əklisa kəndi – 6 545 [ağça]
234. Kiçik Tanziyə kəndi – 4 500 [ağça]
235. Şusqadar kəndi – 7 165 [ağça]
236. Aniqır Velet kəndi – 1 200 [ağça]
237. Boşkəndi kəndi – 500 [ağça]
238. Şaniban kəndi – 9 010 [ağça]
239. Dəmürlüy kəndi – 1 500 [ağça]
240. Musaqala kəndi – 8 970 [ağça]
241. Serkinet kəndi – 7 390 [ağça]
242. Şulaver kəndi – 6 625 [ağça]
243. Şeşaqra kəndi – 1 200 [ağça]
244. Qarabulaq kəndi – 3 000 [ağça]
245. Kiçik Şığır kəndi – 1 500 [ağça]
246. Kiçik Verdsuban kəndi – 2 000 [ağça]
247. Kərcila kəndi – 1 000 [ağça]
248. Saraxvela kəndi – 900 [ağça]
249. Sabıklı kəndi – 1000 [ağça]
250. Evşinkəndi kəndi – 2000 [ağça]
251. Ormaşun kəndi – 1 100 [ağça]
252. Qalemşiyan kəndi – 4 500 [ağça]
253. Vardkərə kəndi – 23 570 [ağça]
254. Leqleqaşin kəndi – 9 690 [ağça]
255. Katxit kəndi – 1 500 [ağça]
256. Canbağça kəndi – 950 [ağça]

---

[1] Mətndə “Sataris-i sufla”.

257. Qamış kəndi – 3 500 [ağça]
258. Böyük Tağut kəndi – 31 860 [ağça]
259. Medavnis kəndi – 7 525 [ağça]
260. Ağumiru kəndi – 4 500 [ağça]
261. Gəldgələn kəndi – 2 100 [ağça]
262. Culi kəndi – 4 000 [ağça]
263. Cansud kəndi – 5 600 [ağça]
264. Lolaşen kəndi – 7 890 [ağça]
265. Paracuk kəndi – 2 500 [ağça]
266. Kiçik Tağut kəndi – 6 995 [ağça]
267. Tunus kəndi – 8 615 [ağça]
268. Yuxarı Micə[1] kəndi – 8 435 [ağça]
269. Aşağı Micə[2] kəndi – 6 545 [ağça]
270. Qadirqulu kəndi – 1 500 [ağça]
271. Devildmanis kəndi – 2 000 [ağça]
272. Avancuk kəndi – 4 500 [ağça]
273. Boslib kəndi – 9 670 [ağça]
274. Qubavlet kəndi – 6 875 [ağça]
275. Vardsuban kəndi – 2 1325 [ağça]
276. Körincik kəndi – 10 164 [ağça]
277. Çinçur kəndi – 10 885 [ağça]
278. Dilamişen kəndi – 7 635 [ağça]
279. Səkşənxana kəndi – 8 245 [ağça]
280. Təkənam kəndi – 2 500 [ağça]
281. Tumanis qalasının Rəbatı kəndi – 4 500 [ağça]
282. Əbülməlik kəndi – 5 600 [ağça]
283. Damlud kəndi – 5 145 [ağça]
284. Qırğun kəndi – 5 200 [ağça]
285. Şuvisul kəndi – 4 000 [ağça]
286. Ukaniğud kəndi – 6 275 [ağça]
287. Şunğum kəndi – 3 500 [ağça]
288. Cirudtala kəndi – 4 500 [ağça]
289. Van kəndi – 15 760 [ağça]

---

[1] Mətndə “Micə-i ulya”.

[2] Mətndə “Micə-i sufla”.

290. Balic kəndi – 9 846 [ağça]
291. Şamiran kəndi – 6 510 [ağça]
292. Korsecul kəndi – 8 720 [ağça]
293. Yaylaşin kəndi – 5 200 [ağça]
294. Monastır kəndi – 4 200 [ağça]
295. Qazuret kəndi – 10 690 [ağça]
296. Asbinan kəndi – 3 500 [ağça]
297. Axalişen kəndi – 2 500 [ağça]
298. Uşivan kəndi – 23 090 [ağça]
299. Saqris kəndi – 3 000 [ağça]
300. Sabret kəndi – 100 [ağça]
301. Cəldam kəndi – 15 930 [ağça]
302. Kiyanet kəndi – 4 000 [ağça]
303. Kubeş kəndi – 13 600 [ağça]
304. Bakir kəndi – 9 300 [ağça]
305. Bağçalar kəndi – 3 000 [ağça]
306. Keneseklez kəndi – 5 710 [ağça]
307. Kelesubel kəndi – 6 370 [ağça]
308. Sukeçən kəndi – 4 500 [ağça]
309. Merut kəndi – 4 500 [ağça]
310. Bulurqənd kəndi – 5 200 [ağça]
311. Dikəkinçi (?) kəndi – 3 500 [ağça]
312. Digər Kəbruc kəndi – 5462 [ağça]
313. Dağdan kəndi – 7 840 [ağça]
314. Kenelaşin kəndi – 4 500 [ağça]
315. Digər Damlud kəndi – 4 500 [ağça]
315. (? – 316) [1] Erkən Tala kəndi – 4 800 [ağça]
316. Bazabun kəndi – 3 500 [ağça]
317. Mizdaş kəndi – 9 160 [ağça]
318. Kirandil kəndi – 8 770 [ağça]
319. Məşqa Tala kəndi – 2 520 [ağça]
320. Salaməleyk kəndi – 3 000 [ağça]
321. Nəxadır kəndi – 3 500 [ağça]

---

[1] Əlyazmanın mətnində səhv olaraq Erkən Tala kəndinin say nömrəsi 316 əvəzinə 315 kimi göstərilib. Bu növ katib səhvlərinə mətnin sonrakı hissələrində də rast gəlinir.

322. Soğanlıq kəndi – 29 640 [ağça]
323. Şuşilet kəndi – 7 460 [ağça]
324. Kolagir çiftliyi – 7 000 [ağça]
325. Yataqlar – 30 000 [ağça]
326. Cunis kəndi – 2 000 [ağça]
327. Mütəfərriq rəiyyətlər – 2 880 [ağça]
327. (? – 328) Cavistan kəndi – 1 900 [ağça]
Adı çəkilən kəndlərin yekun sayı – 328

**Baydar nahiyəsi**

328. Lələxan kəndi – 15 130 [ağça]
329. Qorçubaşı kəndi – 45 000 [ağça]
330. Molla Həsən kəndi – 10 000 [ağça]
331. Bəykəndi kəndi – 17 000 [ağça]
332. Ələmdarlı kəndi – 25 000 [ağça]
333. Əmirxanlı kəndi – 26 000 [ağça]
334. Padar kəndi – 26 524 [ağça]
335. Digər Padar kəndi – 23 000 [ağça]
336. Kürd Yolqulu kəndi – 15 000 [ağça]
337. Kürd Camallı kəndi – 58 000 [ağça]
338. Daşdəmir kəndi – 3 000 [ağça]
339. Heydərli kəndi – 5 000 [ağça]
340. Mürşidlü kəndi – 18 000 [ağça]
341. Xələfli kəndi – 25 000 [ağça]
342. Zülfüqarlı kəndi – 28 000 [ağça]
343. Mahmudlu kəndi – 20 000 [ağça]
344. Əhmədli kəndi – 12 000 [ağça]
345. Kürdlər kəndi – 44 000 [ağça]
346. Qobuqılağı kəndi – 12 000 [ağça]
347. Zəngişamlı kəndi – 13 000 [ağça]
348. Ağa Əmirhəsənli kəndi – 27 640 [ağça]
349. Başçıq çiftliyi kəndi – 1 000 [ağça]
350. Əmirli kəndi – 33 490 [ağça]
351. Qacar kəndi – 16 000 [ağça]
352. Şıxatlı kəndi – 12 680 [ağça]

353. Əli Piri oğlu Əmirhəsənli kəndi – 12 100 [ağça]
354. Dəlilər kəndi – 9 110 [ağça]
355. Marnaul arxının kəndi[1]
356. Xan ... (?) arxının kəndi
357. Kankan arxının kəndi
358. Padar məntəqəsində Əhməd arxının kəndi – 23 000 [ağça]
359. Hüseyn Yağlıca yataqlarının kəndi – [ağça]
360. Qullar kəndi – 20 000 [ağça]
361. Çələbili camaatının kəndi[2] – 32 682 [ağça]
362. Orucoğlu camaatının kəndi – 2 265 [ağça]
363. Molla Abdulla oğlu Mustafa camaatının kəndi – 970 [ağça]
364. Nəcməddinli camaatı – 1 000 [ağça]
365. Yadigar camaatı – 8 590 [ağça]
366. Molla Əhməd camaatı – 1 200 [ağça]
367. Digər Yadigar camaatı – 500 [ağça]
368. Qara Dəmirçili camaatı – 1 500 [ağça]
369. Cavanşir camaatı – 13 000 [ağça]
370. Mirimxan qışlağı – 9 000 [ağça]
371. Xızır qışlağı – 10 000 [ağça]
372. Lək camaatı – 16 000 [ağça]
373. Cavanşir Kəbir[li] camaatı – 15 000 [ağça]
374. Əmirxaslı camaatı – 29 480 [ağça]
375. Muğanlı camaatı – 12 520 [ağça]
376. Əmir Xəlil qışlağı – 3 500 [ağça]
377. Keşişoğlu ərazisi – 500 [ağça]
378. Qızqala ərazisi – 1 200 [ağça]
379. Gültəpə ərazisi – 500 [ağça]
380. Qaramanlı ərazisi – 300 [ağça]
381. Kilsəkəndi ərazisi – 500 [ağça]
382. Karlı ərazisi – 500 [ağça]
383. Körpüköy məzrəəsi – 1 000 [ağça]

Adı çəkilən kəndlərin yekun sayı – 56

---

[1] Mətndə "Karye-i Hark-i Marnaul".
[2] Mətndə "Karye-i Cemaat-i Çelebilü".

## Dəmirçihəsənli nahiyəsi

384. Qoluqaralı camaatı – 8 640 [ağça]
385. Yüzbaşı camaatı – 30 960 [ağça]
386. Mustafa qışlağı – 6 480 [ağça]
387. Dögər qışlağı – 3 960 [ağça]
388. Məhəmməd qışlağı – 4 480 [ağça]
389. Çubuqlu qışlağı – 4 480 [ağça]
390. Həsən qışlağı – 2 520 [ağça]
391. Nuru bəy qışlağı – 4 320 [ağça]
392. Çəltiklər qışlağı – 2 520 [ağça]
393. Süleyman qışlağı – 2 520 [ağça]
394. Molla Mehdi qışlağı – 3 960 [ağça]
395. Arıqlı camaatı – 15 840 [ağça]
396. Çopur Məhəmməd qışlağı – 1800 [ağça]
397. Vəli ağa qışlağı – 1 800 [ağça]
398. Saatlı camaatı – 6 840 [ağça]
399. Uruz qışlağı – 1 800 [ağça]
400. Dərzioğlu qışlağı – 18 000 [ağça]
401. Çatağı Vəli qışlağı – 2160 [ağça]
402. Qaramanlı camaatı – 25 200 [ağça]
403. Qaracalar camaatı – 23 400 [ağça]
404. Sarvan camaatı – 24 840 [ağça]
405. Qaraüzən qışlağı – 2 520 [ağça]
406. Kürdlər qışlağı – 9 740 [ağça]
407. Qaramanlı Vəli qışlağı – 26 280 [ağça]
408. Şərəfəddin camaatı – 31 680 [ağça]
409. Məhəmmədqulu qışlağı – 5 760 [ağça]
410. Lətifli qışlağı – 3 600 [ağça]
411. Şahbudaq qışlağı – 5 400 [ağça]
412. Dəmirçihəsənli camaatı – 30 240 [ağça]
413. Məhəmməd qışlağı – 12 960 [ağça]
414. Kəpənəkçi camaatı – 4 480 [ağça]
415. İlxıçı Yusif qışlağı – 5 400 [ağça]
416. Kətxudalı qışlağı – 3 960 [ağça]
417. Hacı Saleh qışlağı – 2 160 [ağça]
418. Cəfər qışlağı – 1 240 [ağça]

419. Əbülqasım qışlağı – 5 040 [ağça]
420. Çatal Vəli qışlağı – 6 480 [ağça]
421. Fəttahoğlu qışlağı – 12 600 [ağça]
422. Turaclı[1] qışlağı – 5 040 [ağça]
423. Muğanlı camaatı – 11 160 [ağça]
424. Qaraöküz qışlağı – 12 600 [ağça]
425. Bayəhməd qışlağı – 10 100 [ağça]
426. Musa ağa qışlağı – 7 200 [ağça]
427. Abdulla ağa qışlağı – 2 160 [ağça]
428. Sarı Sabunçu camaatı – 31 320 [ağça]
429. Çatallı camaatı – 8 280 [ağça]
430. Qəmərli camaatı – 16 200 [ağça]
431. Əmirəhmədli camaatı – 23 040 [ağça]
432. Köhnəli qışlağı – 10 800 [ağça]
433. Keşəli camaatıı – 6 840 [ağça]
434. Molla Abdulla camaatı – 7 200 [ağça]
435. Ələmdarlı qışlağı – 5 760 [ağça]
436. Çaxıcı Mustafa camaatı – 6 480 [ağça]
437. Qara Rza camaatı – 6 120 [ağça]
438. İbrahim ağa qışlağı – 15 480 [ağça]
439. Qoca qışlağı – 35 640 [ağça]
440. Təzəli qışlağı – 29 880 [ağça]
441. Məhəmməd Xəlil ağa qışlağı[2] – 40 680 [ağça]
442. Qacarlı camaatı – 6 480 [ağça]
443. Sofulu camaatı – 2 160 [ağça]
444. Nəzərli camaatı – 18 000 [ağça]
445. Məqsud oğlu Məhəmməd qışlağı – 4 480 [ağça]
446. Keşəli camaatı – 400 [ağça]
447. Saraçlı Seydi camaatı – 350 [ağça]
448. Arıqlı qışlağının kəndi – 300 [ağça]
449. Pənbəkli qışlağı – 300 [ağça]
450. Səlcikli camaatı – 200 [ağça]

---

[1] Mətndə “Duraclı”.

[2] Bəzən Fihristin mətni ilə əlyazmanın əsas mətni arasında fərqlər olur. Məsələn, burada 441 sayı ilə Məhəmməd Xəlil ağa qışlağı qeyd edildiyi halda, əsas mətndə bu say ilə Saraçlı ı qeyd olunub.

451. Göycəli camaatı – 500 [ağça]
452. Sarı Sabunçu camaatı – 400 [ağça]
453. Çallı camaatı – 300 [ağça]
454. Sarı Vəli camaatı – 1 200 [ağça]
455. Nəcməddinli camaatı – 500 [ağça]
456. Bəxtiyar qışlağı – 400 [ağça]
457. Qara Dəmirçi qışlağı – 300 [ağça]
458. Əlixan qışlağı – 600 [ağça]
459. Suqaraçı qışlağı – 500 [ağça]
460. Koxalı camaatı – 400 [ağça]
461. Keşəli Yaqub qışlağı – 200 [ağça]
462. Bayəhmədli qışlağı – 300 [ağça]
463. Saatlı qışlağı – 200 [ağça]
464. Yataqlar

**Somxit livasının nahiyələri**

465. Çanaqçı kəndi – 46 000 [ağça]
466. Minəş kəndi – 16 500 [ağça]
467. Xoxmet kəndi – 17 000 [ağça]
468. Almalı kəndi – 7 000 [ağça]
469. Caba kəndi – 18 000 [ağça]
470. Mateş kəndi – 12 500 [ağça]
471. Dansud kəndi – 5 500 [ağça]
472. Yeşum kəndi – 5 500 [ağça]
473. Söyüdlü kəndi – 19 500 [ağça]
474. Qatırçı kəndi – 22 000 [ağça]
475. Coraqarnud kəndi – 12 500 [ağça]
476. Qarasavir kəndi – 28 500 [ağça]
477. Cansud kəndi – 9 500 [ağça]
478. Damlud kəndi – 9 500 [ağça]
479. Samon kəndi – 12 500 [ağça]
480. Coratan kəndi – 13 450 [ağça]
481. Susan kəndi – 8 500 [ağça]
482. Kurci kəndi – 4 500 [ağça]
483. Himeqan kəndi – 9 500 [ağça]

484. Şuşix kəndi – 15 000 [ağça]
485. Sağrulə kəndi – 9 550 [ağça]
486. Buri kəndi – 5 500 [ağça]
487. Yuxarı Sağundad kəndi – 10 526 [ağça]
488. Aşağı Sağundad kəndi – 15 900 [ağça]
489. Lorçivanik kəndi – 3 285 [ağça]
490. Kiçik Dərbas kəndi – 2 400 [ağça]
491. Şanişi kəndi – 19 500 [ağça]
492. Şilavir kəndi – 49 664 [ağça]
493. Ağcakəndi kəndi – 14 520 [ağça]
494. Şadık kəndi – 1 891 [ağça]
495. Keşiş kəndi – 8 370 [ağça]
496. Əvəzəli qışlağı kəndi – 7 670 [ağça]
497. Yuxarı qışlaq kəndi – 4 385 [ağça]
498. Orta Bolnis kəndi – 112 140 [ağça]
499. Aşağı Bolnis kəndi – 99 420 [ağça]
500. Baş Bolnis kəndi – 23 400 [ağça]
501. Saqdaris kəndi – 55 200 [ağça]
502. Toğurğaşin kəndi – 25 200 [ağça]
503. Soriq kəndi – 16 800 [ağça]
504. Dilavər kəndi – 12 000 [ağça]
505. Vank kəndi – 14 918 [ağça]
506. Aqbat kəndi – 9 752 [ağça]
507. Hinduş kəndi – 3 014 [ağça]
508. Berdik kəndi – 9 000 [ağça]
509. Çiləbər kəndi – 5 000 [ağça]
510. Tala kəndi – 3 068 [ağça]
511. Dəlixaç kəndi – 15 000 [ağça]
512. Böyük Dərbas kəndi – 12 051 [ağça]
513. Nadvelin kəndi – 6 000 [ağça]
514. Yuxarı Maqra[1] kəndi – 10 950 [ağça]
515. Devet kəndi – 5 600 [ağça]
516. Datur kəndi – 850 [ağça]
517. Axtala kəndi – 7 000 [ağça]

---

[1] Mətndə “Maqra-i ulya”.

518. Məlikkaşan kəndi – 4 450 [ağça]
519. Xoşureti kəndi – 6 300 [ağça]
520. Cocukən kəndi – 1 100 [ağça]
521. Barnik kəndi – 850 [ağça]
522. Asad kəndi – 44 630 [ağça]
523. Əmirhəsənli (?) camaatı – 550 [ağça]
524. Berdik kəndi – 9 280 [ağça]
525. Kaçmaxut kəndi – 5 200 [ağça]
526. Qarabənd kəndi – 7 920 [ağça]
527. Asir kəndi – 6 510 [ağça]
528. Bərğuc kəndi – 3 500 [ağça]
529. Vərəng kəndi – 9 180 [ağça]
530. Sinaxit kəndi – 12 000 [ağça]
531. Buğakar kəndi – 25 000 [ağça]
532. Bərtəkan kəndi – 14 500 [ağça]
533. Xosud kəndi – 20 000 [ağça]
534. Koşaber[d] kəndi – 15 000 [ağça]
535. Şikəkar kəndi – 18 500 [ağça]
536. Burud kəndi – 29 500 [ağça]
537. Xilə qışlağı – 300 [ağça]
538. Uzunsaqqal kəndi – 6 490 [ağça]
539. Hadirğud kəndi – 3 128 [ağça]
540. Vasakkəndi kəndi – 1 886 [ağça]
541. Quduru kəndi – 5 928 [ağça]
542. Böyük Qudit kəndi – 11 580 [ağça]
543. Dərğırad kəndi – 5 475 [ağça]
544. Kiçik Qudit kəndi – 6 460 [ağça]
545. Qiranis kəndi – 3 925 [ağça]
546. Dərbas Tala kəndi – 6 000 [ağça]
547. Dərbas Əndiqə kəndi – 4 300 [ağça]
548. Buğacor kəndi – 3 200 [ağça]
549. Mehmaq kəndi – 5 100 [ağça]
550. Böyük Zirək kəndi – 12 010 [ağça]
551. Aşağı Zirək[1] kəndi – 6 000 [ağça]
552. Bərincan kəndi – 8 000 [ağça]
553. Yuxarı Əndiqə[2] kəndi – 7 692 [ağça]

---

[1] Mətndə “Zirək-i sufla”.

[2] Mətndə “Əndiqe-yi bala”.

554. Aşağı Əndiqə[1] kəndi – 4 836 [ağça]
555. Girağud kəndi – 6 000 [ağça]
556. Orta Şeva kəndi – 6 000 [ağça]
557. Mamxud kəndi – 8 000 [ağça]
558. İrsaqbuz kəndi – 7 300 [ağça]
559. Şeyxçoban kəndi – 6 000 [ağça]
560. Qəribqaya kəndi – 4 290 [ağça]
561. Kiçik Hücrə kəndi – 3 344 [ağça]
562. Hinəcur kəndi – 3 858 [ağça]
563. Qışlaq kəndi – 6 000 [ağça]
564. Xocan kəndi – 4 800 [ağça]
565. Xaçur kəndi – 4 800 [ağça]
566. Şərkər kəndi – 7 356 [ağça]
567. Gogi kəndi – 3 908 [ağça]
568. Tumanşin kəndi – 3 000 [ağça]
569. Simon kəndi – 3 592 [ağça]
570. Tazur kəndi – 1 000 [ağça]
571. Nekzar kəndi – 2 169 [ağça]
572. Cebelar kəndi – 2 123 [ağça]
573. Şirqıra kəndi – 3 025 [ağça]
574. Vələd kəndi – 6 600 [ağça]
575. Ziğılcam kəndi – 10 200 [ağça]
576. Curi kəndi – 7 200 [ağça]
577. Kəlkədik kəndi – 18 000 [ağça]
578. Qatavit kəndi – 20 000 [ağça]
579. Dəlikdaş kəndi – 3 648 [ağça]
580. Arğavən kəndi – 5 903 [ağça]
581. Axuna kəndi – 4 000 [ağça]
582. Cala kəndi – 6 944 [ağça]
583. Ağnəki kəndi – 12 000 [ağça]
584. Şur kəndi – 3 891 [ağça]
585. Sərkinə kəndi – 11 920 [ağça]
586. Kiçik Tögərçi kəndi – 1 800 [ağça]
587. Qalakəndi kəndi – kəndi [ağça]

[1] Mətndə "Əndiqe-yi zir".

588. Təraşu kəndi – 500 [ağça]
589. Məşhəd kəndi – 5 000 [ağça]
590. Qoşakilsə kəndi – 8 000 [ağça]
591. Poladavar qışlağı – 4 500 [ağça]
591. Durğu kəndi – 12 065 [ağça]
593. Yaraqlı kəndi – 4 930 [ağça]
594. Seydi Tala kəndi – 2 400 [ağça]
595. Sultan kəndi – 2 000 [ağça]
596. Zəng kəndi – 2 000 [ağça]

**Taşır nahiyəsi**

597. Qatırlı kəndi – 9 875 [ağça]
598. Qızıl Ziyarət kəndi – 8 260 [ağça]
599. Vələdkəndi kəndi kəndi – 4 940 [ağça]
600. Zəğned kəndi – 2 790 [ağça]
601. Ağzıböyük kəndi – 6 050 [ağça]
602. Qarakilsə kəndi – 10 000 [ağça]
603. Zərgər kəndi – 2 500 [ağça]
604. Şiştəpə kəndi – 2 000 [ağça]
605. Ballıqaya kəndi – 4 490 [ağça]
606. Sirməbad kəndi – 500 [ağça]
607. Qızılkilsə kəndi – 3 500 [ağça]
608. Telli kəndi – 5 880 [ağça]
609. Heydərbəy kəndi – 6 580 [ağça]
610. Dülbəndli kəndi – 9 300 [ağça]
611. Ağdaş kəndi – 6 020 [ağça]
612. Söyüdlü kəndi – 2 500 [ağça]
613. Palçıqlı kəndi – 2 000 [ağça]
614. Digər Ballıqaya kəndi – 2 000 [ağça]
615. Papaxçı kəndi – 2 000 [ağça]
616. Ağkeçi kəndi – 2 000 [ağça]
617. Lacivərd kəndi – 2 500 [ağça]
618. Çardaqlı kəndi – 2 000 [ağça]
619. Çaxmaqlı kəndi – 1 900 [ağça]
620. Digər Qarakilsə kəndi – 2 000 [ağça]

621. Molla Qasım kəndi – 2 000 [ağça]
622. Süleymankəndi kəndi kəndi – 2 000 [ağça]
623. Vağavir kəndi – 2 000 [ağça]
624. Calakəndi kəndi – 2 000 [ağça]
625. Yaqubkəndi kəndi kəndi – 2 000 [ağça]
626. Qoşakilsə kəndi – 1 500 [ağça]
627. Azadkənar kəndi – 1 800 [ağça]
628. Dəliqılınc kəndi – 1 900 [ağça]
629. Digər Dəliqılınc kəndi – 2 000 [ağça]
630. Qamış kəndi – 2 000 [ağça]
631. Keşişkəndi kəndi – 2 000 [ağça]
632. Coqa kəndi – 2 000 [ağça]
633. Sarıçam kəndi – 2 000 [ağça]
634. Yeniçaq kəndi – 2 000 [ağça]
635. Sarıqkəndi kəndi kəndi – 2 000 [ağça]
636. İrtəçapuq kəndi – 2 000 [ağça]
637. Qaraqala kəndi – 2 000 [ağça]
638. Digər Qaraqala kəndi – 2 000 [ağça]
639. Qarqabulaq[1] kəndi – 1 000 [ağça]
640. Sarıqala kəndi – 1 200 [ağça]
641. Müşkxana[2] kəndi – 2 000 [ağça]
642. Ağbaba dağındakı yaylaq[lar] – 120 000 [ağça]
643. Mis mədəninin gəliri – 40 960 [ağça]

## Pənbək nahiyəsi

644. Qarakilsə kəndi – 15 880 [ağça]
645. Yaqublu kəndi – 6 350 [ağça]
646. Kosalar kəndi – 8 230 [ağça]
647. Vartanan kəndi – 6 850 [ağça]
648. Xırlı kəndi – 4 040 [ağça]
649. Vank kəndi – 7 560 [ağça]
650. Qaçır kəndi – 4 630 [ağça]

---

[1] Mətnin əsas hissəsində bu kəndin adı "Qarqarabulaq" kimi yazılıb.
[2] Mətnin əsas hissəsində bu kəndin adı "Misxana" kimi yazılıb.

651. Sarmısaqlı kəndi – 4 880 [ağça]
652. Kohalı kəndi – 2 720 [ağça]
653. Heydərbəy kəndi – 5 880 [ağça]
654. Bozabdal kəndi – 3 500 [ağça]
655. Paşacıq kəndi – 3 500 [ağça]
656. Dərbas kəndi – 2 200 [ağça]
657. Armudlu kəndi – 200 [ağça]
658. Digər Armudlu kəndi – 250 [ağça]
659. Qışlaqkəndi kəndi – 250 [ağça]
660. Kənaçı qışlağı kəndi – 200 [ağça]
661. Qocabiçən[1] kəndi – 550 [ağça]
662. Quzey[2] qışlağı kəndi – 200 [ağça]
663. Dağa kəndi – 200 [ağça]
664. Bunsur (?) kəndi – 2 500 [ağça]
665. Qocakəndi kəndi – 200 [ağça]
666. Təkəqayası kəndi – 250 [ağça]
667. Əlixanlı kəndi – 250 [ağça]
668. Sənəkli qışlağı kəndi – 250 [ağça]
669. Köşəbulaq kəndi – 200 [ağça]
670. Başxaraba kəndi – 250 [ağça]
671. Qadirqulu kəndi – 200 [ağça]
672. Atatəpə kəndi – 250 [ağça]
673. Cecəxan kəndi – 1 500 [ağça]
674. Babaxanlı kəndi – 1 600 [ağça]
675. Borçalı kəndi – 4 230 [ağça]
676. Ağbulaq kəndi – 3 200 [ağça]
677. Göyüzən kəndi – 9 810 [ağça]
678. Aşağı Qaradərzi[3] kəndi – 2 500 [ağça]
679. Yuxarı Qaradərzi[4] kəndi – 3 000 [ağça]
680. Alalaşan kəndi – 4 500 [ağça]

---

[1] Burada bu toponimi "Qocamiçən" kimi də oxumaq mümkündür, lakin mətnin əsas hissəsində aydın şəkildə "Qocabiçən" kimi yazılıb.

[2] Mətndə "Quzay".

[3] Mətndə "Qaradərzi-yi sufla".

[4] Mətndə "Qaradərzi-yi ulya".

681. Aşağı Həkrəmal[1] kəndi – 4 500 [ağça]
682. Yuxarı Həkrəmal[2] kəndi – 2 300 [ağça]
683. Qızılüzən kəndi – 3 200 [ağça]
684. Şilavir kəndi – 2 000 [ağça]
685. Salmanlı kəndi – 2 500 [ağça]
686. Tabatlı kəndi – 2 000 [ağça]
687. Ulayurt kəndi – 2 000 [ağça]
688. Qaltaqçı kəndi – 2 300 [ağça]
689. Palçıqlı kəndi – 2 000 [ağça]
690. Tacdar kəndi – 2 500 [ağça]
691. Bəykəndi kəndi – 6 650 [ağça]
692. Abdibəy kəndi – 4 500 [ağça]
693. Hallavar kəndi – 6 600 [ağça]
694. Qaraçoban kəndi – 8 500 [ağça]
695. Gümrək kəndi – 2 500 [ağça]
696. Candar kəndi – 6 500 [ağça]
697. Ağbulaq kəndi – 2 300 [ağça]
698. Göyyoğuş kəndi – 2 000 [ağça]
699. Qarakilsə Sarıyar kəndi – 2 500 [ağça]
700. Hubur kəndi – 3 500 [ağça]
701. Qaçağan kəndi – 3 500 [ağça]
702. Nurşin kəndi – 2 000 [ağça]
703. Təknə kəndi – 2 000 [ağça]
704. Ortabab kəndi – 3 000 [ağça]
705. Örənqışlaq kəndi – 200 [ağça]
706. Mollakilsə kəndi – 200 [ağça]
707. Sarıyar kəndi – 200 [ağça]
708. Sarıcalı kəndi – 200 [ağça]
709. Dərəkəndi kəndi – 200 [ağça]
710. Kürbölük kəndi – 200 [ağça]
711. Sərəhməd kəndi – 200 [ağça]
712. Qaraboya kəndi – 200 [ağça]
713. Ətəkli kəndi – 200 [ağça]

---

[1] Mətndə "Həkrəmal-i zir".
[2] Mətndə "Həkrəmal-i ulya".

714. Güllübulaq kəndi – 200 [ağça]
715. Əmənlik kəndi – 200 [ağça]
716. Qoğançı kəndi – 200 [ağça]
717. Hamamlı kəndi – 3 200 [ağça]
718. Qocaqara kəndi – 2 100 [ağça]
719. Seyirdək kəndi – 2 300 [ağça]
720. Qocaəli kəndi – 500 [ağça]
721. Əlixanı kəndi – 200 [ağça]
722. Hüseyn qışlağı kəndi – 200 [ağça]
723. Ayaşlı kəndi – 200 [ağça]
724. Qədiməli kəndi – 500 [ağça]
725. Doğanlı kəndi – 200 [ağça]
726. Dovşanlı kəndi – 200 [ağça]
727. Hacıqara kəndi – 11 400 [ağça]
728. Söyüdlü kəndi – 7 720 [ağça]
729. Heydərqaraxanlı kəndi – 5 020 [ağça]
730. Güllücə kəndi – 6 000 [ağça]
731. Əmirxanlı kəndi – 3 000 [ağça]
732. Reyhanlı kəndi – 300 [ağça]
733. Ərhəd kəndi – 1 000 [ağça]
734. Saral kəndi – 4 000 [ağça]

**Ağcaqala livası**

735. Qaçağan camaatı – 20 000 [ağça]
